*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 noyabr 2018-ci il № 85 (2301) Qiyməti 25 qəpik


# Naxçıvan Qarnizonu qoşunlarının birgə təlimi keçirilib



*Oktyabrın 30-da Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi təlimi izləyiblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə hazırlıq barədə raport verib.

Sonra təlimin mövzusu, məqsədi və mərhələləri barədə məlumat verilib. Qeyd olunub ki, təlimin keçirilməsində məqsəd Naxçıvan Qarnizonunun güc strukturlarının idarəetmə orqanlarının xüsusi əməliyyatların planlaşdırılmasında uzlaşmış fəaliyyətinə nail olmaqdan, birləşmə və hissələrin idarəetmə və əməliyyat heyətinin əməliyyatların planlaşdırılması, idarə edilməsi və təşkili üzrə bilik və bacarıqlarını təkmilləşdirməkdən, eləcə də müdafiə zamanı düşmənin kəşfiyyat-diversiya orqanlarının aşkar, təcrid və məhv edilməsindən ibarətdir.

Ali Məclisin sədri yeni hərbi təyinatlı cihazlara baxıb.

Məlumat verilib ki, Silahlı Qüvvələrin Hərbi Akademiyası və Azərbaycan Milli Elmlər Akademiyasının birgə hazırladıqları "İldırım RP-10" radiopartladıcı və "Sərhəd Sipər Sistemi" yüksək texniki göstəricilərə malikdirlər. "İldırım RP-10" radiokanal sistemi mürəkkəb relyefi olan ərazidə 3500 metr məsafədə, birbaşa görüntülü ərazidə isə 5 min metr məsafədə döyüş tapşırığını yerinə yetirir. "Sərhəd Sipər Sistemi" isə 1 kilometr məsafədə mühəndis çəpərinə quraşdırılır və radiosiqnallar vasitəsilə xəbərdaredici maneələr zolağı yaradır. Dövlət sərhədinə hər hansı müdaxilə olduğu zaman sistem onun yerini müəyyənləşdirir və mərkəzə məlumat ötürür.

Sonra komanda verilib və təlim başlayıb.

Təlimdə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı birləşmə və hissələrinin, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələrinin ümumilikdə mindən artıq şəxsi heyəti, 80-ə yaxın zirehli və avtomobil texnikası, 20-dən artıq hava hücumundan müdafiə vasitələri, 40-a yaxın artilleriya qurğusu, 10-dan çox aviasiya texnikası və pilotsuz uçuş aparatları iştirak edib.

Təlimdə düşmənin genişmiqyaslı hücum əməliyyatının və diversiya-təxribat fəaliyyətlərinin qarşısının alınması üçün şərti olaraq müxtəlif döyüş tapşırıqları yerinə yetirilib. Düşmən birinci eşelon birləşmələrinin güclü müqavimətinə rast gələrək hücumu dayandırmağa məcbur olub. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri Naxçıvan Qarnizonunun digər güc strukturlarının bölmələri ilə qarşılıqlı əlaqədə əks-zərbə endirib, düşmən müdafiəsinin yaxın dərinliyindəki dağ aşırımlarını, təminat və təxliyə yollarını tutub, mühüm obyektlərini məhv edib, döyüş texnikasını ələ keçirib.

**(Ardı 2-ci səhifədə)**

# Naxçıvan Qarnizonu qoşunlarının birgə təlimi keçirilib

(Əvvəli 1-ci səhifədə)



Düşmənin diversiya-təxribat qrupunun zərərsizləşdirilməsi məqsədi ilə fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlıları təxribatçıları zərərsizləşdirərək tam tərkibdə ələ keçiriblər. Sərhədçilər dövlət sərhədinə basqın edən düşmənlə mübarizədə qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetiriblər. Xüsusi təyinatlı qrup isə düşmən kolonunu mina tələsinə salaraq döyüş texnikalarını qrupun atəşi ilə məhv edib, irəliləmə və geriçəkilmə yollarını bağlayıb.

Düşmənin döyüş-nəqliyyat vertolyotlarından istifadə etməklə qoşunlarımızın müdafiə dərinliyinə hava desantı çıxarmaq cəhdinin qarşısı alınıb, Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsi düşmənin taktiki hava desantını mühasirəyə alaraq qısa müddətdə zərərsizləşdirib. Hakim yüksəkliyin aşırımını müdafiə edən düşmənin canlı qüvvəsini məhv etmək üçün xüsusi təyinatlı qrup ərazinin relyefindən yararlanaraq düşmən mövqeyinə gizli şəkildə yaxınlaşıb. Xüsusi təyinatlı qrup sərrast atəşlərlə düşmənin canlı qüvvəsini məhv edib, müdafiə mövqeyini ələ keçirib və hakim yüksəklik istiqamətində digər qrupların fəaliyyətinə əlverişli şərait yaradıb. Dağ aşırımının digər yamacını ələ keçirmək tapşırığı almış xüsusi təyinatlı qrup təyin edilmiş rayona zirehli "SANDCAT" avtomobilləri ilə hərəkət edib. Xüsusi təyinatlı qrup yüksəklikdə yerləşən düşmən mövqeyini ələ keçirməklə hakim yüksəkliyə hücum edən bölmələrin cinahlardan təhlükəsizliyinə və taktiki desantın hakim yüksəkliyə endirilməsinə şərait yaradıb.

Sərf edilmiş döyüş sursatlarının yenisi ilə təmin olunması, yaralıların təxliyə edilməsi, partlamayan və partlayış-təhlükəli mərmilərin tapılaraq zərərsizləşdirilməsi üçün Fövqəladə Hallar Nazirliyinin pirotexniki taqımı, kinoloqları və xilasedicilәri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetiriblər. Alpinistlər əlverişli istiqamətlərdə hakim yüksəkliyə qalxaraq bölmələrimizə müxtəlif döyüş sursatları çatdırıb, yaralanmış şəxsi heyət təxliyə olunub.



Təlimin gedişində düşmənin ehtiyatlarına aviasiya zərbəsi və hakim yüksəkliyə taktiki hava desantının endirilməsi göstərişi verilib. "SU-25" təyyarələri hədəfi qısa müddətdə məhv edib, "MI-35M" vertolyot manqası düşmənin hakim yüksəklikdə yerləşən mövqelərinə atəş zərbələri endirib. Vertolyotlardan endirilən taktiki hava desantı qrupları mühasirəyə aldıqları düşməni məhv ediblər. "KORD" və "NSVT" pulemyotları ilə silahlandırılmış "KOBRA" və "SANDCAT" yüngül zirehli transportyorların heyətləri düşmənin atəş nöqtələrini susdurublar. Snayper cütlükləri düşmənin döyüş sahəsində komanda heyətini, rabitəçiləri və əsas atəş vasitələrini aşkar edərək zərərsizləşdiriblər. Xüsusi təyinatlı qruplar isə Azərbaycan istehsalı olan "ZƏFƏR" tapançalarından və digər atıcı silahlardan istifadə edərək düşmənin yaxın məsafələrdəki canlı qüvvəsini məhv edib.

Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin qarşılıqlı əlaqədə birgə fəaliyyəti nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə tam nail olunub, yaradılmış hədəf qrupları və maketləri məhv edilib.

Xüsusi təyinatlı qruplar tərəfindən təlim ərazisindəki ən yüksək zirvədə üçrəngli bayrağımız qaldırılıb və işğaldan azad edilmiş Günnüt kəndi ilə bağlı "Günnüt Azərbaycan əsgərinin rəşadət əzmidir" şüarı nümayiş olunub.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov hərbi təlimin hadisəsiz və uğurla başa çatması münasibətilə zabit, gizir və əsgərləri təbrik edib, təlimdə iştirak edən bütün şəxsi heyətə təşəkkürünü bildirərək deyib: Bu il ölkəmizdə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının 27-ci ildönümü qeyd olundu. Hər bir dövlətin inkişafı üçün onun müstəqilliyi vacib şərtdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması bundan da çətindir".

Ali Məclisin sədri deyib: "Ordusu olmayan dövlət müstəqil ola bilməz. Güclü ordu güclü dövlətçilik, sabitlik və inkişaf deməkdir. Azərbaycan xalqının heç bir zaman öz müstəqilliyindən geri çəkilməyəcəyini bəyan edən Ümummilli Liderimiz deyirdi: "Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır". Ulu Öndərimizin ordu quruculuğu sahəsində başladığı işi uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dövlət müstəqilliyimizin qarantı olan güclü ordu yaratmışdır. Bu gün ordumuzun maddi-texniki bazasının gücləndirilməsi və döyüş hazırlığının artırılması istiqamətində kompleks tədbirlər görülür".

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının da müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Keçirilən hərbi təlim də göstərdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələri istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir. Ordumuz ona görə güclüdür ki, şəxsi heyətdə yüksək vətənpərvərlik var. Vətənpərvərlik sahib olduğumuz ən ali dəyərimizdir. Bu gün keçirilən hərbi təlimdən çıxarılan konkret nəticə də ondan ibarətdir ki, Silahlı Qüvvələrimizin hərbi qulluqçuları yüksək döyüş hazırlığı ilə yanaşı, həm də yüksək vətənpərvərliyə malikdirlər.

Ali Məclisin sədri bir daha hərbi təlimin uğurla başa çatması münasibətilə təşkilatçılara, bütün şəxsi heyətə təşəkkür edib, çıxışını ölkə Prezidentinin fikirləri ilə tamamlayıb: "Bizim ordumuz bizim qürurumuzdur".

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə şəxsi heyəti təbrik edərək deyib: "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər sırasında Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinə xüsusi diqqət yetirir. Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər isə Silahlı Qüvvələrin buradakı ordu, birləşmə və hissələrində xidmətin və döyüş hazırlığının yüksək səviyyədə təşkilinə imkan verir. Bu gün Əlahiddə Ümumqoşun Ordu ən müasir silah, texnika və digər avadanlıqlarla təmin edilmişdir. Keçirilən təlim bunu bir daha təsdiq etdi. Muxtar respublikadakı bütün güc strukturlarının xüsusi təyinatlıları tərəfindən qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirildi, şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirdi. Artıq düşmən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun, eləcə də Silahlı Qüvvələrin muxtar respublikadakı digər birləşmə və hissələrinin yüksək döyüş hazırlığından, müasir silah və texnika təminatından qorxur və bunu etiraf edir.



Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, təlimdə Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələri tam döyüşə hazır vəziyyətə gətirilib, bölmələr döyüş uzlaşması keçib və tapşırıqlar uğurla yerinə yetirilib. Xüsusi təyinatlıların fəaliyyət ardıcıllığının vahid qaydada qəbul edilməsində, eləcə də radiotexniki, radioelektron, məlumat, xüsusi və qoşun kəşfiyyatlarının aparılmasında əməli təcrübə qazanılıb. General-leytenant Kərəm Mustafayev təlimdə iştirak edən şəxsi heyət adından minnətdarlıq edib, bundan sonra da bütün əmr və tapşırıqların uğurla yerinə yetiriləcəyini bildirib.

Ali Məclisin sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb.

Gizir Bəhruz Məmmədov və zabit Vüqar Məlikov minnətdarlıq edərək deyiblər ki, bu gün muxtar respublikada hərbi xidmət nümunəvi təşkil olunub. Hərbi hissələrin maddi-texniki təminatı, əsgərlərin məişət və xidməti şəraitinin yaxşılaşdırılması, eləcə də zabit-gizir ailələrinin yaşayışı üçün ardıcıl tədbirlər görülüb. Yaradılan şərait və bu cür təlimlərin keçirilməsi mübarizə əzmimizi və döyüş ruhumuzu daha da artırır. Əmin edirik ki, düşmənin istənilən təxribatının qarşısını almağa tam hazırıq.

Şəxsi heyət birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov xüsusi təyinatlıların təlim mərkəzində yaradılan şəraitlə maraqlanıb.

Bildirilib ki, təlim mərkəzində şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün lazımi şərait var. Burada yataq yerləri, əşya və ərzaq anbarları, yeməkxana və məişət guşələri istifadəyə verilib. Görülən işlər istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verir.

Ali Məclisin sədri Naxçıvan Qarnizonu qoşunlarının birgə taktiki-xüsusi təlimlərinin bundan sonra da davam etdirilməsi və qarşılıqlı fəaliyyətin təşkili barədə müvafiq tapşırıqlar verib.



# Ordumuzun Azərbaycan peykindən istifadəsi hərbi imkanlarımızı daha da genişləndirir

*General-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Ordusunda yeni istismara verilmiş Peyk Rabitəsi İdarəetmə Mərkəzinin fəaliyyəti ilə tanış olub.*

Bildirilib ki, təhlükəsizlik tədbirləri nəzərə alınmaqla, peyk rabitə sistemi əsasən avtonom işləyən mərkəzi yerüstü stansiya, mobil və daşınan peyk rabitəsi vasitələri olaraq "Azərkosmos" ASC-nin peyki üzərindən fəaliyyət göstərir.

Bu peyk rabitə sistemi hücum və müdafiə əməliyyatlarında qoşunların mobil hərəkəti və çevik yerdəyişməsi zamanı komanda məntəqələri arasında səsli və mətn (DATA) məlumat mübadiləsinin təmin edilməsi üçün təyin edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan Ordusunun Rabitə Vasitələrinin Texniki Xidmət və Təmiri Mərkəzinin yeni istifadəyə verilmiş bölmələrinin açılışında da iştirak edib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov mərkəzin ərazisində yerləşən rabitə vasitələrinin təmiri üçün nəzərdə tutulmuş laboratoriyalar, eləcə də texniki, xidməti, inzibati otaqlar və saxlanclarda yaradılmış şəraitlə tanış olub.

Bildirilib ki, qoşunlarda istifadə edilən bütün növ stasionar və səyyar müasir hərbi kommunikasiya avadanlıqlarına mərkəzdə texniki xidmət göstərilir və onlar qısa müddətdə tam təmir olunaraq yenidən sıraya qaytarılır.

Avtomatlaşdırılmış idarəetmə sistemləri, radiostansiyalar və peyk avadanlıqlarının təmiri otaqlarında çalışan mütəxəssislərlə görüşən Müdafiə naziri rabitə vasitələrinin müasir ordunun idarəetmə sisteminin əsas elementlərindən biri olduğunu qeyd edib.



General-polkovnik Zakir Həsənov müasir döyüşdə bölmələrin fasiləsiz, sabit, operativ və gizli idarə olunması məsələsinin Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin daim diqqət mərkəzində saxladığını bildirərək mərkəzin imkanlarının daha da genişləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

# Müdafiə naziri Naxçıvan istiqamətində işğaldan azad edilmiş ərazilərdə olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfər edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov işğaldan azad edilmiş ərazilərdə olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri Günnüt kəndi və ətraf ərazilərdə yerləşən mövqelərdə, Qızılqaya yüksəkliyində yaradılmış etibarlı müdafiə sistemi, görülmüş mühəndis işləri və yeni mövqelərdə qısa zamanda inşa olunan əsgəri-məişət kompleksləri ilə tanış olub. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla, daimi işıq və istilik sistemi ilə təchiz edilib.

General-polkovnik Zakir Həsənov ön xətdə əsgər və zabitlərlə görüşüb, xidmətin təşkili ilə maraqlanıb, xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edib.



## Hərbi Akademiyada elmi-praktik seminar keçirilib

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Müdafiə Nazirliyi arasında 2018-ci il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Silahlı Qüvvələrinin Hərbi Akademiyasında "Hərbi təhlükəsizlik siyasəti" mövzusu üzrə elmi-praktik seminar keçirilib.

Tədbirdə almaniyalı ekspertlər tərəfindən Hərbi Akademiyanın dinləyiciləri, eləcə də hərbi strategiya sahəsində çalışan professor-müəllim heyətinə mühazirələr təqdim olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***2 noyabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Abdinli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 31-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçisi Gennadi Petrika, ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov, Stefan Viskonti və onun şəxsi köməkçisi Küanti de Rankur, eləcə də Endryu Şofer və onun şəxsi köməkçisi Devid Börnşteyn aparıblar.

# Müdafiə naziri ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşüb

*Noyabrın 2-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Endrü Şofer (ABŞ), Stefan Viskonti (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki son vəziyyət və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri müzakirə olunub.

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il noyabrın 1-dək 94.727.254,86 manat, 213 min 577,88 ABŞ dolları, 13 min 36 avro və 5 min rubl vəsait yığılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

# HHQ-nin yeni hərbi hissəsi istifadəyə verilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HHQ-nin yeni hərbi hissəsinin açılışında iştirak edib, burada hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olublar.

Müdafiə Nazirliyinin rəhbərliyi hava hücumundan müdafiə bölmələrinin döyüş texnika və vasitələrinə, eləcə də yeni istifadəyə verilən qərargah, əsgər yataqxanası, yeməkxana, sıra meydanı, tibb məntəqəsi, hamam-qazanxana, digər xidməti və inzibati otaqlara baxış keçirib.

Məruzə olunub ki, yaradılan şərait şəxsi heyətin gündəlik xidmətinin təşkilinə müsbət təsir göstərəcək, habelə hava məkanımızın daha etibarlı qorunması məqsədilə döyüş hazırlığı və döyüş növbətçiliyinin yüksək səviyyədə təşkili və aparılmasını təmin edəcək.

Sonra Müdafiə naziri hərbi hissənin silahlanmasındakı zenit-raket komplekslərinə baxış keçirib və HHQ-nin Döyüşü İdarəetmə Mərkəzində olaraq komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# "İstənilən döyüş tapşırığını yerinə yetirməyə hazırıq"

Dağ Təlim Mərkəzində Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı, kəşfiyyat və xilasetmə bölmələrinin cəlb edildiyi "Kəşfiyyat" və "Dağçılıq" təkmilləşdirmə kursları başa çatdı. Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun təlimatçı qismində iştirak etdiyi kursların uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirildi.

Əvvəlcə buraxılış mərasiminə hazırlıqla bağlı məruzə edildi,Türkiyə və Azərbaycan Respublikalarının Dövlət himnləri səsləndirildi.

Mərasimdə Əlahiddə Ümumqoşun Ordunun zabiti Tehran Mənsimov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin zabiti Haluk Arpacıoğlu çıxış edərək bildirdilər ki, çətin dağlıq şəraitdə döyüş aparmaq vərdişlərinin, yaralıların və əmlakın təxliyəsi üsullarının, müxtəlif dağ ləvazimatlarının istifadə qaydalarının mənimsənilməsi məqsədilə keçirilən kurslarda iki qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq nümayiş etdirməsi hər birimizi daha da qürurlandırır.

Mərasimdə məzunlar adından çıxış edən kurs birincisi Nəriman Quliyev bildirdi ki, hərbi qulluqçularda yüksək dözümlüyün və yenilməz iradənin formalaşmasına xidmət edən "Kəşfiyyat" və "Dağçılıq" təkmilləşdirmə kurslarında qazandıqlarımız nəticəsində ən çətin döyüş tapşırıqlarını istənilən relyef və hava şəraitində yerinə yetirməyə hazırıq.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev kursları müvəffəqiyyətlə bitirən məzunları təbrik edərək bildirdi ki, Azərbaycan və Türkiyə Respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq Naxçıvanda və Türkiyə Respublikasının Qars şəhərində keçirilən döyüş atışlı birgə taktiki təlimlər hər iki qardaş ölkənin hərbi qüdrətindən və şəxsi heyətlərimizin yüksək vətənpərvərliyindən xəbər verir. "Böyük öndərlərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" şüarları keçirilən təlimlərdə və hərbi qulluqçularımızın peşəkarlıqlarının artırılmasına xidmət edən kurslarda birliyimizin və bərabərliyimizin ifadəsinə çevrilib. Hər iki qardaş ölkənin hərbi qulluqçularının Dağ Təlim Mərkəzində təşkil edilmiş kurslarda vətənpərvərlik hissləri ilə peşəkarlıq nümayiş etdirməsi hərbi əməkdaşlığın yüksək səviyyədə olduğunun əyani göstəricisidir."



Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu Komandanı kursları daha yüksək qiymətlərlə 1-ci, 2-ci və 3-cü yerdə başa vuran hərbi qulluqçulara sertifikat, qiymətli hədiyyə və döş nişanlarını təqdim etdi. "Kəşfiyyat" və "Dağçılıq" təkmilləşdirmə kurslarında təlimatçı qismində iştirak edən Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına qiymətli xatirə hədiyyələri təqdim edildi.

Sonra kursları müvəffəqiyyətlə bitirən bütün məzunlara sertifikatlar və döş nişanları təqdim edilərək xidmətlərində uğurlar arzulandı.

Kurs birinciləri tərəfindən xatirə lövhələrinə buraxılış emblemləri vuruldu.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**




# Azərbaycan tarixinin mərhələli piramidasının təqdimatına həsr olunmuş "Zirvəyə aparan yol" adlı tədbir keçirildi

*Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə Müharibə Veteranları və Beynəlmiləlçi Hərbçilər İctimai Birliyi tərəfindən hazırlanmış "Zirvəyə aparan yol" adlı Azərbaycan tarixinin mərhələli piramidasının və Silahlı Qüvvələrimizin Azərbaycanın ərazi bütövlüyü uğrunda göstərdikləri qəhrəmanlıqlarından bəhs edən "Fədailər" videoklipinin təqdimatına həsr olunmuş tədbir keçirildi.*

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin əməkdaşları, ictimaiyyət nümayəndələri, müharibə veteranları, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantları və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Azərbaycan xalqının qədim və qəhrəmanlıqla zəngin tarixi" adlı məruzə ilə çıxış edərək bildirdi ki, xalqımızın çoxəsrlik tarixi misilsiz qəhrəmanlıq səhifələri ilə zəngindir. "Azərbaycan daim çətin sınaqlardan keçib. Gördüyünüz piramidanın 11 pilləsində Vətənimiz Azərbaycanın ən qədim zamanlardan bugünədək 1,5 min illik tarixi əks etdirilir. Piramidanın I pilləsində Azıx mağarası və Qobustan qayaları da daxil olmaqla, xalqımızın tarixinin ən qədim dövrü təbliğ olunur. Piramidanın II-III pillələrində əsasən tariximizin orta əsrlər dövrü əks olunub. Burada Cavanşir, Babək, Uzun Həsən və digər qəhrəmanlarımız, Nizami Gəncəvi başda olmaqla, elm və mədəniyyət xadimlərimiz, Şah İsmayıl Xətai, Nadir Şah Əfşar, habelə XVIII əsr Azərbaycan xanlıqları haqqında müfəssəl məlumatlar var.

Dördüncü pillədə Azərbaycan tarixinin XIX-XX əsrin əvvəllərindəki dövrü öz əksini tapıb. Gülüstan və Türkmənçay müqavilələri, həmçinin Azərbaycanda maarifçilik hərəkatının inkişafında misilsiz rol oynamış Həsən bəy Zərdabi, Hacı Zeynalabdin Tağıyev, Mirzə Kazım bəy və başqa görkəmli şəxsiyyətlər haqqında məlumat verilir.

Piramidanın V pilləsi bütünlüklə Azərbaycan Xalq Cümhuriyyətinə həsr edilib. Sonrakı pillədə Azərbaycanın sovet dövrü tarixinə işıq salınaraq Cəmşid Naxçıvanski, Həzi Aslanov, Mehdi Hüseynzadə və digər qəhrəmanlarımızla yanaşı, Üzeyir Hacıbəyov və Müslüm Maqomayev kimi mədəniyyət xadimlərimiz haqqında da məlumatlar təqdim olunur. Bu pillədə, həmçinin 20 Yanvar faciəsi, eləcə də xalqımızın ulu öndəri Heydər Əliyevin imperiya rəhbərliyinə qarşı kəskin etirazları əksini tapıb".

Muzey rəisi qeyd etdi ki, piramidanın VII və VIII pillələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsinə, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin, o cümlədən Milli Ordumuzun yeni quruculuğuna dair məlumatlarla zəngindir. "Növbəti - IX pillədə Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycan Respublikasının daxili siyasi həyatında, o cümlədən ordu quruculuğunda əldə etdiyi uğurlar, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə tanıdılması istiqamətində görülmüş işlər, qazanılmış nailiyyətlər nümayiş etdirilir.

Piramidanın X pilləsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə respublikamızın XXI əsrin əvvəllərində əldə etdiyi böyük nailiyyətlər əks olunub. Bu pillədə Azərbaycanın təkcə kosmik sahədə, beynəlxalq idman həyatında, iqtisadiyyatda, beynəlxalq hərbi əməkdaşlıqda qazandığı nailiyyətlər deyil, həm də ordumuzun uğurları da əksini tapıb."



Ehtiyatda olan polkovnik bildirdi ki, piramidanın sonuncu - XI pilləsi bütünlüklə Azərbaycan Xalq Cümhuriyyətinin və Milli Ordumuzun 100 illik yubileyi, Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə paytaxtımızda keçirilən möhtəşəm paradlara həsr olunub, eyni zamanda bu pillədə Ali Baş Komandan İlham Əliyevin yubileylər münasibətilə çıxışlarından fikirlər, Azərbaycan-Türkiyə dostluğunu əks etdirən fotolar yer alıb. Sonda Əzizağa Qənizadə piramidanın hazırlanmasında iştirak edən muzey əməkdaşlarına, Müdafiə Nazirliyinin bir çox idarələrinin peşəkar hərbçilərinə minnətdarlığını bildirdi.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndəsi polkovnik Etibar Əliyev qeyd etdi ki, zamanın çətin sınaqlarına mərdliklə sinə gərən Azərbaycan tarixi proseslərin gedişində işğal dönəmlərini yaşamış, lakin buna baxmayaraq öz qəhrəman övladlarının iradəsi, qətiyyəti və igidliyi sayəsində müstəqilliyini bərpa etməyə nail olmuş, suverenliyini qorumağı bacarmışdır.

Tədbirdə tarix elmləri doktoru, ehtiyatda olan birinci dərəcəli kapitan Nurulla Əliyev, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov, ehtiyatda olan polkovnik İntiqam Mirzəyev, "Fədailər" mahnısının ifaçısı, Azərbaycanın Xalq artisti Eyyub Yaqubov və başqaları çıxış edərək Azərbaycanın ən qədim tarixə və maddi-mədəni irsə malik olmasını, belə kliplərin gənclərimizin vətənpərvər ruhda tərbiyəsində əhəmiyyətini vurğuladılar.

Sonda ərazi bütövlüyümüz uğrunda qəhrəmanlıq göstərənlərə həsr olunmuş sözləri və musiqisi Əzizağa Qənizadəyə məxsus "Fədailər" adlı videoklip nümayiş olundu.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# "Ərazi bütövlüyümüzü bərpa edəcəyik"

Oktyabrın 29-da cəbhə xəttində yerləşən "N" hərbi hissəsində Zəngilan rayonunun erməni təcavüzkarları tərəfindən işğal edilməsinə həsr olunmuş anım tədbiri keçirilib. Tədbirdə hərbi hissənin şəxsi heyəti, Zəngilan uğrunda döyüşlərdə iştirak edən keçmiş döyüşçülər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimayi Birliyinin Zəngilan rayon şöbəsinin təşkilatçılığı ilə keçirilən anım tədbiri ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.



Bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında olduğunu bildirən "N" hərbi hissəsinin zabiti Eldəniz İmaməliyev qeyd edib ki, dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin müdafiə qüdrəti, maddi-texniki təminatı gündən-günə daha da güclənir. "2016-cı ilin aprel döyüşlərində ordumuz düşmənə öz gücünü bir daha göstərdi. Erməni işğalçılarının nəzarətində olan strateji əhəmiyyətli yüksəkliklərimiz, hektarlarla ərazimiz ordumuzun vətənpərvər, peşəkar hərbçiləri tərəfindən azad olundu. Lələtəpə, Bayraqtəpə yüksəkliklərinə bu gün qəhrəman Azərbaycan Ordusu nəzarət edir. O yüksəkliklərdə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Hərbi hissəmizin şəxsi heyətində döyüş və mənəvi-psixoloji hazırlıq yüksək səviyyədədir. Onlar düşmən işğalında olan torpaqlarımızın azadlığı və Azərbaycanın ərazi bütövlüyü naminə Ali Baş Komandanın döyüş əmrinə həmişə hazırdırlar".

Zabit əminliklə bildirib ki, biz tezliklə Ali Baş Komandanımızın rəhbərliyi altında ərazi bütövlüyümüzü bərpa edib Zəngilanımıza, Qarabağımıza, Şuşamıza və digər işğal altında olan torpaqlarımıza da üçrəngli bayrağımızı sancacağıq.

Tədbir Zəngilan rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirakçı olan müharibə veteranları Azad Musayevin, Sənan Həmidovun, Ənvər Qarayevin, Novruz Məmmədzadənin çıxışları ilə davam edib. Onlar bildiriblər ki, Ali Baş Komandanın döyüş, səfərbərlik əmrinə həmişə hazırdırlar. "Biz veteranlar aprel döyüşlərində də ordumuzun, döyüşən zabit və əsgərlərimizin yanında idik. Fəxr edirik ki, bu gün ordumuz ən müasir silahlarla təmin edilir. Hərbi hissələrimizdə müasir əsgər yataqxanaları tikilir. Onların məişət şəraiti daha da yaxşılaşır. Ordumuzun qüdrəti artır. Biz veteranlar ordumuzun günügündən artan gücünə arxalanırıq, Azərbaycan Ordusuna güvənirik. İnanırıq ki, ordumuz yaxın vaxtlarda işğal altında olan bütün torpaqlarımızı azad edəcək, qələbə bayramlarını Qarabağımızda, Şuşamızda qeyd edəcəyik."

Tədbir müasir ordu quruculuğundan bəhs edən, aprel döyüşlərində şəhid olan hərbçilərimizin xatirəsinə həsr olunan və Zəngilan döyüşlərini əks etdirən video-çarxların nümayişi ilə sona çatıb.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri.**
**2. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.**

**Mövzu:** Döyüş hazırlığında, döyüş növbətçiliyində təhlükəsizlik qaydalarına riayət edilməsi, hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı əsas təhlükəsizlik tələbləri*

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Nizamnamə və təlimatlarının, Müdafiə nazirinin əmrlərinin, eləcə də bilavasitə rəislərin əmr və sərəncamlarının tələblərinə müvafiq olaraq, birləşmə və hissələrdə təhlükəsizlik tədbirlərinin təşkili, onların keçirilməsinə rəhbərlik və nəzarət edilməsi komandirlərə və digər vəzifəli şəxslərə həvalə olunur. Onlar döyüş hazırlığı məşğələlərini təşkil edərkən və bu məşğələlərin gedişində təhlükəsizliyin təmin olunmasına dair tədbirlərin işlənib hazırlanmasını həyata keçirirlər.

Döyüş növbətçiliyi "Döyüş növbətçiliyinin təşkili və aparılmasına dair Təlimat"a uyğun təşkil olunur və düşmənin qəfildən hücumunun vaxtında aşkar edilməsi və dəf olunması, həmçinin müdafiənin dayanıqlığını və keçilməzliyini təmin etmək məqsədi daşıyır.

**Döyüş növbətçiliyinin təşkili və aparılması zamanı postlarda aşağıdakı təhlükəsizlik qaydalarına əməl edilməlidir:**

- ehtiyac olmadan patronu patron yuvasına yeritməmək;
- silahla əsgər sığınacağına daxil olmamaq;
- silahı doldurma-boşaltma yerində ancaq post başçısının nəzarəti altında silahı doldurmaq (boşaltmaq);
- daraq taxıldandan sonra silahı qoruyucuda saxlamaq;
- doldurulmuş silahla (qoruyucuda olsa belə) davranış qaydalarını pozmamaq (zarafat etməmək, silahla oynamamaq və s.)
- içərisində mərmi (patron) olub-olmamasından asılı olmayaraq, silahı şəxsi heyətə, əsgər sığınacağına, yaşayış məntəqəsinə tərəf yönəltməmək;
- silaha boş darağı taxarkən patronun olub-olmamasına nəzarət etmək;
- səngərdə durarkən başını qaldırmamaq, düşməni ancaq müşahidə məntəqəsindən müşahidə etmək, zirehli jileti çıxarmamaq və silahı əlindən qoymamaq;
- gecə vaxtı tonqalların qalanmasına, maşınların düşmənin müşahidəsi altında olan sahələrdə faralarla hərəkətinə yol verməmək.

Döyüş növbətçiliyində olarkən silahı sökməməli, düşmənlə heç bir halda əlaqəyə girməməli, döyüş növbətçiliyinin yerini (postu) post başçısının icazəsi olmadan tərk etməməli və deyilən tələbləri yerinə yetirməyən əsgər yoldaşı barədə dərhal post başçısına məruzə edilməlidir.

Hər bir hərbi qulluqçu şəxsi və ictimai gigiyena qaydalarına ciddi riayət etməli və öz orqanizmini gündəlik möhkəmləndirməli, tərli-tərli su içməməli, kəsici, deşici əşyalarla zarafat etməməli və həkimin məsləhəti olmadan dərman qəbul etməməlidir. Soyuq vaxtlarda hərbi qulluqçuların orqanizminin həddindən artıq soyuması və donması, isti vaxtlarda isə həddindən artıq qızması, gün yanıqları və istilikvurma hallarının qarşısını alan tədbirlərin görülməsi xüsusi əhəmiyyət kəsb edir.

Mina sahələrinə qətiyyən yaxınlaşmamalı, düşmən haqqında müvafiq məlumatları, eləcə də hər hansı bir hadisəni gördükdə və ya eşitdikdə dərhal post başçısına məruzə edilməlidir.

**Atış çalışmalarının, döyüş atışlarının və döyüş atışlı taktiki təlimlərin keçirilməsi zamanı təhlükəsizlik tədbirləri:**

- atışda təhlükəsizlik, atışların düzgün təşkili, "Atış kursu"nda qoyulmuş qayda və təhlükəsizlik tədbirlərinə dəqiq riayət etməklə, bütün hərbi qulluqçuların yüksək intizamı ilə təmin olunur. Atış keçirilən hər bir obyektdə, onun xüsusiyyətlərini və ərazi şəraitini nəzərə alaraq təhlükəsizlik tədbirləri üzrə təlimat hazırlanır. Təhlükəsizlik tədbirlərini mənimsəməmiş şəxsi heyət atışa buraxılmır;
- hər bir hərbi qulluqçu atışda təhlükəsizlik tədbirlərini dəqiq yerinə yetirməlidir. Hərbi hissə və bölmə komandirləri onlara tabe olan şəxsi heyətin təhlükəsizlik tədbirlərinə dəqiq riayət etmələrinə tam məsuliyyət daşıyırlar;
- atışdan əvvəl hədəf meydanı yoxlanılmalıdır və atış ərazisindən insanlar, heyvanlar və maşınlar çıxarılmalıdır;
- partlamamış mərmilər, minalar, bombalar, partladıcılar və partlama təhlükəli maddələr olan sahələrə girmək (maşınla) qadağandır. Belə sahələrdə müvafiq nişanlı və xəbərdarlıq yazılı göstəricilər qoyulmalıdır;
- atəş açan döyüş maşınları ekipajlarının atış rəhbəri ilə rabitəsi olmayanda atəş açmaq və aparmaq qadağandır. Hədəf meydanında, uçuş məkanında yanğın əmələ gəldikdə, döyüş maşınlarının ekipajları səmti itirdikdə atəş dərhal dayandırılır;
- döyüş maşınlarından atışda xəndəkləri, çalaları və başqa dərin maneələri keçəndə silaha maksimal yüksəlmə bucağı verilir;
- döyüş maşınları ilkin vəziyyətə qayıdana kimi ("Maşınlara" komandası verilənə qədər) lyukları açmaq və döyüş maşınlarından çıxmaq qadağandır;
- əl döyüş qumbaraları atılanda zapal yalnız qumbaranı atmaqdan əvvəl rəhbərin komandası ilə qoyulur. Daldanacaqdan müdafiə və tank əleyhinə qumbaralar partlayandan 10 saniyədən az olmayaraq keçəndən sonra çıxmaq olar;
- atışlar keçiriləndə əlavə olaraq, hər silah növü üzrə müvafiq təlimatlarda göstərilmiş təhlükəsizlik tədbirlərinin müddəaları rəhbər tutulmalıdır.

*Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi*

Hərbi xidmətin təhlükəsizliyi - hərbi qulluqçuların təhlükəli və zərərli amillərin təsirindən həyati vacib maraqlarının müdafiəsi dərəcəsini əks etdirən hərbi xidmətin vəziyyətidir. Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi hərbi qulluqçuların həyat və sağlamlığının qorunub saxlanılmasına, qoşunların həyat fəaliyyətinin bütün növlərinin təhlükəsizlik şəraitinin təşkilinə, eləcə də xidməti vəzifələri yerinə yetirərkən şəxsi heyətin ölümünə və xəsarət almasına səbəb olan amillərin təhlili, proqnozlaşdırılması və təsirinin məhdudlaşdırılmasına yönəlmiş Azərbaycan Respublikasının qanunvericiliyinin, Silahlı Qüvvələrin ümumqoşun nizamnamələrinin, Müdafiə Nazirliyinin müvafiq normativ aktlarının tələblərinin yerinə yetirilməsinə dair vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının məqsədyönlü fəaliyyətidir.

Xidməti vəzifələrini (müvafiq işi) yerinə yetirən zamanı hərbi qulluqçuların təhlükəsizliyini təmin edən qanunvericilik aktları ilə, normativ-texniki sənədlərlə, qaydalar və təlimatlarla müəyyən edilmiş təhlükəsizlik tələbləri vardır. Azərbaycan Respublikasının Müdafiə nazirinin qərar və əmrləri, Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanlarının əmr və sərəncamları ilə isə əlavə təhlükəsizlik tələbləri müəyyən edilir.

**Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsi üzrə tədbirlərin əsas məqsədi aşağıdakılardır:**

- şəxsi heyət arasında qeyri-döyüş itkilərinin qarşısının alınması;
- hərbi qulluqçular tərəfindən yerli əhaliyə qarşı hüquq pozuntularının qarşısının alınması;
- ətraf təbii mühitə zərər vurmağın maksimum azaldılması.

**Hərbi xidmət təhlükəsizliyinin təmin olunmasının digər vəzifələri aşağıdakılardır:**

- hər bir hərbi qulluqçuda təhlükəsizlik tədbirlərinə və qaydalarına ciddi əməl olunmasına dair şəxsi məsuliyyətin formalaşması;
- şəxsi heyətdə həm öz həyatının, sağlamlığının, həm də ətrafdakıların həyat və sağlamlığının qorunub saxlanılmasına şüurlu münasibətin formalaşdırılması;
- bütün kateqoriyalı vəzifəli şəxslərə hüquqi mədəniyyətin və mövcud hüquq normalarının yerinə yetirilməsi hissinin aşılanması;
- hərbi qulluqçuların maksimum təhlükəsiz fəaliyyətini təmin edən möhkəm hərbi-peşəkar və mənəvi-psixoloji keyfiyyətlərin formalaşdırılması;
- şəxsi heyətdə mülki əhaliyə hörmətlə yanaşmanın və onlara qarşı normativ hüquqi tələblərin ciddi yerinə yetirilməsinin formalaşdırılması;
- hərbi qulluqçularda ətraf mühitə humanist münasibətlərin formalaşması.

Hərbi xidmətin təhlükəsiz şəraitini yaratmaq yalnız o zaman mümkündür ki, onlardan qorunmanı tələb edən hərbi xidmətin təhlükəsizliyinə təhdidlər məlum olsun.

**Hərbi xidmətin təhlükəsizliyi aşağıdakı əsas növlərə bölünür:**

- döyüş növbətçiliyinin (növbəsi) təhlükəsizliyi;
- qarovul, daxili və qarnizon xidmətinin təhlükəsiz aparılması;
- silah və hərbi texnikanın istismarının təhlükəsizliyi;
- döyüş hazırlığının (o cümlədən, atış çalışmaları, döyüş atışları, taktiki təlimlərin keçirilməsi, döyüş texnikasının sürülməsi) təhlükəsizliyi;
- praktiki və xüsusi məşğələlərin təhlükəsizliyi;
- təsərrüfat işlərinə cəlb edilən hərbi qulluqçuların təhlükəsizliyi.

Şəxsi heyətin fəaliyyətinin xüsusiyyətlərini nəzərə alaraq, hərbi xidmətin təhlükəsizliyinin əsas növləri dəqiqləşdirilə və konkretləşdirilə bilər.

Bu və ya digər təhlükəsizlik növünün mahiyyəti, xarakteri və məzmunu obyektlərə təsir edən amillərlə müəyyən olunur. Ümumi şəkildə hərbi xidmətin təhlükəsizliyinin bütün növlərinin mahiyyəti onların hərbi qulluqçu və ətraf mühit üçün təhlükəsizlikdən, məzmunu isə bu təhlükəsizliyə nail olmağa imkan verən müvafiq tədbirlərin keçirilməsindən ibarətdir. Təhlükəsizlik növünün mahiyyətinin, xarakterinin və məzmununun spesifik xüsusiyyətləri bu konkret fəaliyyət növünün xarakterindən asılıdır.

Hərbi xidmətin təhlükəsizliyinin təmin olunmasına ümumi yanaşma qanunların və normativ hüquqi aktların hərbi xidmətin təhlükəsizliyi məsələləri üzrə bütün tələblərinə ciddi əməl etməkdir.

**Qoşunların gündəlik fəaliyyəti zamanı hərbi xidmətin təhlükəsizliyinə aşağıdakılarla nail olunur:**

- şəxsi heyətin hüquq, azadlıq və təminatlarının Azərbaycan Respublikasının qanunları ilə müdafiəsi, hərbi qulluqçuların fəaliyyətinin xüsusiyyətlərini nəzərə almaqla onlara vətəndaşların sağlamlığının və əməyin qorunmasının müdafizəsinə dair qanunvericiliyin tələbləri ilə əhatə olunması ilə;
- hərbi xidmət keçən zaman hərbi qulluqçuların təhlükəsizliyinə dair tədbirlər sisteminin və onu təmin edən orqanların təkmilləşdirilməsi üzrə dövlət tədbirlərinin həyata keçirilməsi ilə;
- tabeçilikdə olanların həyat və sağlamlığının qorunmasına görə komandirlərin şəxsi məsuliyyəti ilə, bütün vəzifəli şəxslər tərəfindən hərbi xidmətin təhlükəsizlik şəraitinin yaradılması və saxlanılmasına dair ümumqoşun nizamnamələrinin tələblərini bilməsi və yerinə yetirilməsi ilə;
- hərbi hissə və bölmələrdə qoşun xidmətinin keyfiyyətli təşkili və hüquq qaydalarının saxlanılması ilə;
- hər bir hərbi qulluqçu ilə məqsədyönlü tərbiyə işinin aparılması, hərbi kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin saxlanılması ilə;
- şəxsi heyətin sağlamlığı və hərbi qulluqçuların konkret fəaliyyət növünə yararlığının müəyyən edilməsi üçün peşə psixoloji seçiminə tibbi nəzarətin yaxşılaşdırılması ilə;
- yanğından mühafizənin təşkili və ətraf mühitin mühafizəsinə dair görülən tədbirlər ilə;
- şəxsi heyətin ölüm və xəsarətalma hallarının səbəb və şərtlərinin aşkarlanması və aradan qaldırılması, bu məsələlərlə bağlı hərbi prokurorluq və ərazi hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə ilə;
- komandirlər (rəislər) tərəfindən şəxsi heyətin ölüm və xəsarətalma hallarının qarşısının alınması üzrə komissiyanın işinə gündəlik rəhbərliklə;
- şəxsi heyətin xəsarətalma faktları üzrə xidməti araşdırmaların təyin edilməsi və onların nəticələrinə görə müvafiq qərarların qəbul edilməsi ilə.

Hərbi xidmətin təhlükəsizliyinin təmin edilməsinə dair komandirlərin fəaliyyətinin vacib mərhələsi tabeçilikdə olan bölmələrdə təhlükəsizliyin vəziyyətinin təhlili və onun təmin edilməsinə dair yekunların keçirilməsidir.

Hərbi qulluqçuların fiziki və psixoloji sağlamlığının qorunması və möhkəmləndirilməsinə qayğı göstərilməsi komandirlərin əsas vəzifəsidir. Məhz onların üzərinə qoşun xidməti, döyüş hazırlığı, döyüş növbətçiliyi (növbəsi), təsərrüfat və hərbi hissənin (bölmələrin) digər fəaliyyət növləri ilə əlaqədar keçirilən müxtəlif tədbirlər zamanı təhlükəsizlik tələblərinin təmin olunmasına görə böyük məsuliyyət düşür.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Vətənpərvərlik

# “Vətən sizin ürəyinizdən başlayır”

*Hərbi hissələrdə şairlərlə əsgərlərin görüşü mənə həmişə könül xoşluğu verib. Eşitdiklərim öz yerində, gördüklərim də yaddaşıma- düşüncələrimə hopub. Şeir də düşüncədi. Bu düşüncə - əsgər üçün həmişə maraqlı olan şair düşüncəsi məfkurə zərrəsidi; kimi kövrəlir, kimi duyğulanır, kiminin qaşları çatılır, yumruqları düyünlənir...*



Əsgər Vətənin, deməli, ruhumuzun keşiyindədi. Şeir ruhdan süzülür - əsgər həm də şair sözünün, poeziyamızın keşikçisidi. Şeirimizin keşiyini çəkənlər, təbii ki, şair üçün də əzizdi, doğmadı... Bu duyğunu dəfələrlə yaşamışam. "N" hərbi hissəsində həmin ovqatın əhatəsindəydim.



Əksər şairlərlə müqayisədə Rəşid Faxralı ruhən ordumuza doğma adamdı - ehtiyatda olan mayordu, ömrünün 27 ili ordumuzla bağlıdı, cəbhə bölgələrində ezamiyyətlərdə çox olub, əsgər xarakterinə yaxşı bələddi. Yaradıcılığının böyük bir hissəsi ordu ilə, ordu quruculuğu ilə, Böyük Qələbəyə bağlıdı - Böyük Qələbə ifadəsini ilk olaraq Rəşid Faxralının yazılarında gördük.

"N" hərbi hissəsində də əsgərlər Rəşid Faxralını maraqla dinləyirdi. Rəşid Faxralı Vətəndən danışırdı, torpaqdan danışırdı, Qələbə ruhundan danışırdı. Əsgərlərə xitabən "Vətən sizin ürəyinizdən başlayır", - deyirdi. "Bu yaxınlarda bir məqalə yazmışam: torpağın göz yaşları. Torpağın göz yaşlarını siz daha həssaslıqla duyursunuz, qaysaqlamayan o yaraları ürəyinizin gözüylə görürsünüz. Bilirsiniz ki, bu göz yaşlarına səbəb olan yaraların məlhəmi qələbədi..." Kəlmələr əsgərləri duyğulandırırdı. "Biz sözün əsgəriyik. Əsgər olmağı sizdən öyrənmişik, sizdən öyrənirik. Siz Ali Baş Komandan əmr verəndə döyüşəcəksiniz. Özümüz də sıranızda olacağıq, sözümüz də sıranızda olacaq. Qazanacağınız Qələbəni görmək üçün, hər birinizi ruh qardaşımız kimi bağrımıza basmaq üçün, hər birinizi qələbə bayrağı kimi başımız üstünə dikəltmək üçün, şücaətinizə, qəhrəmanlığınıza layiq nəsə yazmaq üçün..."

Səmimi söhbəti, səmimi kəlmələri əsgərlərin baxışları, onların üreyindən keçənlər, açıqlanan mətləblər elə incəliklə tamamlayırdı ki!..

2016-cı ilin aprel döyüşləri heç zaman unudulmayacaq. Ruhumuzun qələbəsi kimi tarix yazıb, tarixləşən bu qələbə yaşadılayaşadıla yaşayacaq. Bu tarix qələbə tarixidi - Qələbənin tarixidi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aprel döyüşləri dərsliklərə salınmalıdır" kimi dəyərləndirdiyi bu döyüşlər Azərbaycan Ordusunun yaxın vaxtlarda qazanacağı Böyük Qələbənin başlanğıcıdı. Rəşid Faxralı bu döyüşlərdən, döyüşənlərdən, qəhrəmanlardan, şəhidlərimizdən danışdı, "Lələtəpə" və "Bayraqtəpə" kitablarının bu döyüşlərə həsr olunduğunu qeyd etdi. "Bu qələbə azərbaycançılığın qələbəsidi...", - dedi.

"2016-cı ilin martında Cocuq Mərcanlıda ezamiyyətdəydim. Lələtəpə tərəfdən tərs yellər əsirdi. Arazın suları göz küsdürürdü. Döyüş növbətçiliyi aparan əsgərlərimizin qətiyyətini görmüşdüm, gördüyüm qətiyyətin zəmanətiylə pıçıldamışdım: Arazın suları durulacaq! Bir ay sonra Böyük Qələbənin sevincini yaşadıq. Aylar sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla yenidən qurulmuş Cocuq Mərcanlıdan qürurla Lələtəpədə dalğalanan bayrağımıza baxırdım. Diqqət yetirəndə mənə elə gəlmişdi ki, Arazın suları durulub; Arazın sularını aprel zəfəri durultmuşdu, bu zəfəri qazananların Vətən sevgisi durultmuşdu. O qalib əsgərlərin davamçıları siz olacaqsınız, Böyük Qələbəni siz qazanacaqsınız. Cıdır düzü sizə qoşa qollar açacaq. Şuşanın dağlarının dumanını siz dağıdacaqsınız", - kəlmələrin, kəlmələrin ifadə etdiyi mətləbin əsgərin ürəyini nəyə kökləndiyini duymaq çətin deyildi.

Əsgərlərin Böyük Qələbənin yoluna çıxmağa hazır olduqlarını sezmək çətin deyildi; əsgərlərin umacaqlı baxışları mayor Fəxrəddin Əhmədovdan üzülmürdü. Bu baxışlar nə umurdu? - döyüş əmri...

Görüşdən sonra mayor Fəxrəddin Əhmədov deyəcəkdi ki, əsgərlərimiz yüksək mənəvi-psixoloji hazırlığa malikdir. Belə tədbirlər bu hazırlığın daha da möhkəmlənməsində mühüm əhəmiyyətə malikdir. Vətənpərvərliklə bağlı deyilən hər söz gərəklidir. Şair Rəşid Faxralının dediklərinin əsgərlərimizin düşüncələrinə hopacağına şübhəm yoxdu.

Əsgər Ülfət Əsgərov Milli Aviasiya Akademiyasının məzunudu. Özünəməxsus dünyagörüşü var:

- Şeir dinləyəndə düşünürsən. Şeiri şairin özündən eşidəndə duyğulanırsan. Vətənə ithaf olunan şeirlərin əsgərlərə aşıladığı mətləb hərbi xidməti ruhən tamamlayır. Belə şeirləri oxumaq da, dinləmək də xoşdu. Bizim vətənsevərliyimiz də Vətən üçündü, şeir də Vətən üçündü. Sizin "Bayraqtəpə" kitabında yazdığınız kimi:

*Əsgər balam, bayaqdan*
*dayanmışıq üz-üzə.*
*Söz sözün yedəkçisi,*
*Söykək olub söz-sözə.*
*Vətəndi daşlı səngər,*
*Sağ da, sol da Vətəndi,*
*Səngərdən Qələbəyə*
*Gedən yol da Vətəndi.*
*Qoyma orda bir daşı*
*Yad tərpədə, Vətəndi.*
*O təpə də Vətəndi,*
*Bu təpə də Vətəndi,*
*Hər kəlməmiz Vətəndi,*
*Söz-söz vətənləşmişik,*
*Od-od vətənləşmişik,*
*Köz-köz vətənləşmişik.*
*Vətən - qibləgahımız,*
*Qələbə harayına*
*Dönməlidi, dönəcək*
*Açılan sabahımız.*

Əsgərin, əsgərlərin baxışlarında mayor Fəxrəddin Əhmədov da, mən də, Rəşid Faxralı da Mübarizlik, Çingizlik görürük. Əsgər Amid Hacımuradov hərbi xidmətə Qusar rayonundan çağırılıb. Qürurla dedi ki, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Çingiz Qurbanov da bu hərbi hissədə xidmətə başlayıb, burada Hərbi and içib. Hər birimiz onun vətənpərvərliyindən bəhrələnərək xidmət edirik, Vətəni onun sevdiyi qədər sevməyə çalışırıq.

- Qəhrəmanlıq örnəkdi. Çingiz Qurbanovun qəhrəmanlığının sizin döyüş əzminiz, qələbə ruhunuz olması sizə inananların, güvənənlərin ürəyini dağa döndərir. Bu inam, bu güvənc deyir ki, Böyük Qələbə ərəfəsindəyik. Özümü özünüz, sözümü - yazacaqlarımı sözünüz həmin möhtəşəmliyə kökləyib. Sizin əhatənizdə olmaq səadətini indi sözlə ifadə etmək çətindi..., - Rəşid Faxralı belə dedi.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Yaponiya və ABŞ birgə hərbi təlimlərə başlayıblar



Oktyabrın 31-də Yaponiya və ABŞ silahlı qüvvələri "Keen Sword" genişmiqyaslı hərbi təlimlərə başlayıblar.

Noyabrın 8-dək davam edəcək təlimlərdə ordunun müxtəlif bölmələri, hərbi dəniz qüvvələrinin aviasiyası və gəmiləri iştirak edirlər. Belə təlimlər iki ildə bir dəfə keçirilir. Bu il təşkil edilən təlimlərə təqribən 47 min yapon və 9,5 min ABŞ hərbçisi cəlb olunub.

ABŞ-ın Yaponiyadakı kontingentinin komandanı general Cerri Martinesin təlimlərlə bağlı bəyanatında deyilir: "Keen Sword" təlimləri iki ölkənin ordusunun Yaponiyanın müdafiəsi və regionda sabitlik üçün zəruri olan hərbi hava, dəniz və amfibiya bacarıqlarını yoxlamağa imkan yaradır".

### Əfqanıstanda helikopter qəzası nəticəsində 25 nəfər həlak olub



Əfqanıstanın qərbində yerləşən Fərah əyalətində hərbi helikopterin qəzaya uğraması nəticəsində 25 nəfər həlak olub.

İnsident oktyabrın 31-də səhər saatlarında baş verib. Qəza zamanı Əfqanıstan ordusuna məxsus hərbi helikopterin göyərtəsində 25 nəfər, o cümlədən bir neçə yerli məmur olub. Hadisə nəticəsində sağ qalanların olmadığı bildirilir.

Ölkədə fəaliyyət göstərən "Taliban" hərəkatı helikopteri vurduqlarını iddia edib. Helikopter taliblərin nəzarətində olduğu əraziyə düşüb. Hələlik Kabil məsələ ilə bağlı şərh verməyib. Yerli hakimiyyət orqanlarının versiyasına görə, qəza pis hava şəraiti səbəbindən baş verib.

### Levan İzoria: Gürcüstan ABŞ-dan yeni silah və hərbi texnika alacaq



Gürcüstan ABŞ-dan silah və hərbi texnika almağı davam etdirəcək.

Bu bəyanatla Gürcüstanın Müdafiə naziri Levan İzoria çıxış edib. O deyib: "ABŞ-ın tank əleyhinə "Javelin" raket sistemini Gürcüstana verməsi çox mühüm hadisə idi. ABŞ-ın Müdafiə naziri Ceyms Mettis mənə bildirib ki, Pentaqonda belə qərarlar yalnız xüsusi etibar qazanmış ölkələrlə bağlı qəbul olunur. ABŞ-Gürcüstan münasibətləri görünməmiş dərəcədə yüksək səviyyəyə çatıb. Bu da bizə ABŞ-dan başqa növ silah-sursat və hərbi texnika almağı davam etdirməyə imkan verir".

### Tacikistanda sovet dövründən qalan hərbi rütbə adlarını dəyişdirmək qərara alınıb



Tacikistan hökuməti yanında Dil və Terminologiya Komitəsi alimlərdən, hərbçilərdən Əhəmənilər, Sasanilər, Samanilər dövrünün qədim əlyazmalarını araşdıran xüsusi qrup yaradıb. Bu qrup milli ordunun zabit və serjant heyətinə verilən hərbi adların tacik dilində alternativlərini dəqiqləşdirməklə məşğuldur.

Komitənin məsul əməkdaşı Əbdurahim Zulfoniyon deyib: "Qrup komitənin təklif etdiyi tacik hərbi adlarını müzakirəyə çıxarıb bəyənəcək. Hazırda Tacikistan ordusunda işlədilən rus hərbi rütbələr islahatlardan sonra belə səslənəcək: yefreytor - radabon, kiçik serjant - dastavar, serjant - dastayor, böyük serjant - dastabon, starşina - sardasta, kapitan - sadavar, podpolkovnik - ləşkəryor, polkovnik - sərləşkər".

Daha yüksək rütbələrin necə adlandırılması barədə məlumat hələ ki verilmir.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi xəbərlər portalının bir yaşı ön xətdə qeyd edildi



*Bu günlərdə "Ordu.az" xəbər portalının bir yaşı tamam oldu. Bir il öncə, hərbi xəbərləri təhrif edilmədən ictimaiyyətə çatdırmaq məqsədilə təsis olunan portal yeni kollektivlə fəaliyyətə başladı. İnformasiya müharibəsinin geniş vüsət aldığı dövrdə yaranan "Ordu.az" saytı qısa müddətdə ölkənin ən populyar hərbi xəbər portalına çevrildi.*

Üç dildə fəaliyyət göstərərək ölkədə, eləcə də dünyada baş verən hərbi xəbərləri oxucu auditoriyasına çatdıran portal maraqlı xəbərlər, təhlillər, araşdırmalar və reportajlar hazırlayır. Saytın başlıca məqsədi hərbi xəbərlər sahəsində yaranmış informasiya boşluğunu doldurmaq, Azərbaycan Ordusunu və hərbi sənayemizi təbliğ etmək, nəticədə cəmiyyətə dolğun, qərəzsiz və dəqiq məlumatlar çatdırmaqdır.

"Ordu.az" portalı Azərbaycanda baş verən hərbi xəbərlərlə yanaşı, dünyada gündəmə çevrilən məlumatları da öz oxucusuna çatdırır. Eləcə də erməni yalanlarını ifşa edir, işğalçı ölkənin hiyləgər siyasətinin dünyaya çatdırılmasında vasitəçi rolunu oynayır.

Ürəyi Vətən eşqi ilə döyünən "Ordu.az" saytının kollektivi portalın yaranma gününü Azərbaycan əsgəri ilə birgə, ön xətt bölmələrindən birində keçirdi. Bu, olduqca diqqəti çəkən məqamdır: Böyük Qələbəni qazanmaq amalıyla xidmət edən əsgər bu etimadı - təntənənin ön xətdə keçirilməsini böyük güvənc bilir. Bu güvəncin mənəvi-psixoloji hazırlıqda əhəmiyyətli olacağına əminik.

Uzun yolun sonunda bölməyə çatan jurnalistlərin sevinci, əsgərlərlə görüşməyin verdiyi qürur hissi baxışlarından sezilirdi. Xoş günlərini əsgərlərlə birgə keçirmək könül xoşluğuydu. Redaktor Şahin Qocayev tezliklə qələbə reportajını hazırlamaq üçün bu dağlara çıxmaq arzusunda olduğunu da bildirdi:

- "Ordu.az" hərbi xəbərlər portalıdı. Bizim başlıca vəzifəmiz əsgərlərimizin uğurlu və şərəfli xidmətini, Azərbaycan Ordusunun gücünü işıqlandırmaq, eləcə də ermənilərin yalanlarını ifşa etməkdən ibarətdir. Bu gün bir yaşımızı kollektiv olaraq əsgərlərimizin yanında qeyd edərək həm qürur hissi keçirir, həm də onlara "hər zaman yanınızdayıq", demək istəyirik. Onlar isti-soyuq bilmədən səngərdə, bizlərsə informasiya müharibəsində düşmənə göz dağıyıq. Əsgərlərimizə demək istəyirəm ki, onların uğurlarını işıqlandırmaq borcumuzdur. Biz portalda yerləşdirdiyimiz informasiyaların hər birini Azərbaycan əsgərinin döyüş ruhu, qələbə əzmi kimi veririk. Növbəti yaşımızda yeni uğurlarımızdan yazmaq arzusundayıq.

Zabit Babək Səmidli də öz növbəsində "Ordu.az" portalının kollektivini bir yaşının tamam olması münasibətilə təbrik edib, saytın mühüm fəaliyyətini əsgərlərin diqqətinə çatdırdı. Saytın yaranmasının ildönümünü əsgərlərlə birgə keçirdiyi üçün "Ordu.az" kollektivinə təşəkkürünü bildirdi. Belə görüşlərin mühüm və əhəmiyyətli olduğunu qeyd edən zabit, ordu və cəmiyyətin daim vəhdətdə olduğunu vurğuladı.

Zabit onu da qeyd etdi ki, bu gün düşmənlə təmas xəttində Vətənə övladlıq borcunu yerinə yetirən əsgərlərin döyüş ruhu yüksəkdir, hər bir döyüşçüdə qələbə əzmi vardır. "Əgər işğalçı Ermənistanın ordusunda qeyri-nizamnamə halları, cinayət hadisələri baş alıb gedirsə, bundan tam fərqli olaraq bizim ordumuzda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və əhval-ruhiyyəsi ürəkaçandır. Çətin və mürəkkəb təbii şəraitdə xidmət edən əsgərlərimiz Vətənin keşiyində ayıq-sayıq dayanırlar. Azərbaycan əsgəri yaxşı bilir ki, apardığı mübarizə haqq işidir, yəni, özgə torpaqlarında gözümüz yoxdur, bizim məqsədimiz yalnız işğalda olan torpaqlarımızı azad etmək və yurd-yuvasından didərgin salınmış insanları əzəli məskənlərinə qaytarmaqdır."



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qürurla demişdi: "Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır". Bu qüruru hər bir vətəndaş yaşayır. Qeyd etməliyəm ki, "Ordu.az" portalı bu qüruru yaşayanların amalının, əqidəsinin, istəyinin portalıdır. "Ordu.az" portalı informasiya məkanında Azərbaycan Ordusunun gücünü, qüdrətini, şəxsi heyətin mənəvi-psixoloji hazırlıq səviyyəsini ictimailəşdirən portaldır. Bu baxımdan "Ordu.az" ordu quruculuğunda fəal iştirak edir.

Azərbaycan Ordusunda şəxsi heyətin yüksək hazırlığını təmin edən əsas amillərdən biri də dövlətin öz əsgərinə olan diqqət və qayğısıdır. Artıq bir sıra bölgələrdə müasir əsgər yataqxanaları, yeməkxanalar, camaşırxana və hamam kompleksləri tikilərək şəxsi heyətin ixtiyarına verilib. Döyüşçülərin əşya və ərzaq təminatına da ciddi önəm verilir, onlar üçün müxtəlif çeşidli milli yeməklər hazırlanır. Bir sözlə, dövlətin və ordu rəhbərliyinin əsas diqqəti Vətənimizin keşiyində dayanan şəxsi heyətin hərtərəfli təminatına yönəlib. Bu isə hərbi qulluqçularda dövlətə və xalqa inam hissini artırmaqla yanaşı, onların öz vəzifə borcuna məsuliyyət hissini də gücləndirir.



Təbriklərə qoşulan əsgərlər də "Ordu.az" kollektivinə səmimi arzularını çatdırdılar. Əsgər Pünhan Mehdiyev qeyd etdi ki, istər biz əsgərlərin valideynləri, istər Azərbaycan ictimaiyyəti, istərsə də dünya ictimaiyyəti Azərbaycan Ordusu haqqında ən düzgün informasiyaları həm də "Ordu.az" portalından alır. "İnformasiyaların operativliyini, müxtəlif dillərdə çatdırıldığını nəzərə alsaq, onun nə dərəcədə gərəkli olduğuna bir daha əmin olarıq. Bu əminlik ehtiramdır, sevgidir. "Ordu.az" hamımızın rəğbəti ilə əhatələnib. Mən əsgər yoldaşlarımın adından kollektivə yeni yaşlarında uğurlar diləyirəm. Bizimlə birgə özəl günlərini qeyd etmələri əlamətdar və sevindiricidir. Hərbi xəbərlər yazan jurnalistlərin zabit və əsgərlərin arasında olması olduqca maraqlıdır. Bir vaxtlar verdikləri xəbərləri oxuyan bizlər indi onlarla ünsiyyətdə olmağın sevincini yaşayırıq. Kollektivə oxucu auditoriyalarının bol olmasını, qələbə reportajları yazmağı arzu edirəm."

Ehtiyatda olan zabit Ədalət Verdiyev çıxışında 2016-cı ilin aprel döyüşlərində ordu-ictimaiyyət münasibətlərindən danışdı: "O zaman bir daha təsdiqləndi ki, xalq orduya inanır, güvənir, ordu xalqa arxalanır. "Ordu.az" saytı həm də bu inamı, bu güvənci informasiya vasitəsilə gerçəkləşdirən portaldır. Biz bunu böyük könül xoşluğuyla müşahidə edirik... "Ordu.az" portalının daha böyük yaradıcılıq uğurları qazanacağına əminik."

Əsgər Albert Məmmədov təbrikə qoşularaq növbəti yaşlarını Qarabağda keçirməyi arzu etdi:

- "Ordu.az" kollektivini bir yaşı münasibətilə təbrik edirəm. Yeni yaşlarında yeni uğurlarımızın informasiyasını verməyi, iki yaşlarını Qarabağda sancılan üçrəngli bayrağımızın ətrafında keçirmələrini arzu edirəm.

Əsgər Ülvi Bayramov da təbriklərə qoşularaq kollektivə çətin və məsuliyyətli işlərində uğurlar dilədi:

- Azərbaycan əsgəri olaraq, bizlərdən yazan jurnalistlərlə görüşmək, eləcə də ad günlərini keçirmək sevindirici haldır. Yüzlərlə kilometr məsafəni qət edərək görüşümüzə gəlib, həm könlümüzü şad etdilər, həm də fərəhləndirdilər. Bir daha səmimi qəlbdən təbrik edirəm.

Bütün çıxışlar bir reallığın təsdiqiydi: Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrinə hazırdır. Hər zabit, hər əsgər Ali Baş Komandanın Azərbaycan Ordusunun 100 illik yubileyinə həsr olunmuş paradda dediklərini gerçəkləşdirmək amalıyla xidmət edir: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək!"

Vətən keşikçilərinin və kollektivin təbrikləri başa çatdıqdan sonra çay süfrəsi ətrafında tort kəsildi, xatirə şəkli çəkildi.

"Azərbaycan Ordusu" qəzetində "Ordu.az" portalının informasiyaları da yer alır. Bu baxımdan qəzetimiz "Ordu.az" portalı ilə oxucuları arasında mətbu əlaqələndiricidir.

"Azərbaycan Ordusu" qəzetinin yaradıcı kollektivi "Ordu.az"-ın yaradıcı kollektivini təbrik edir və ona uğurlar arzulayır...

**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 891
Nüsxə 3525